# Prezident İlham Əliyev: Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır!

***Yenə alçaqlıq, yenə rəzillik, yenə insan adına yaraşmayan hərəkət. Ayın 11-də öz ərazilərindən Gəncəyə atdıqları raket nəticəsində həyatlarını itirən 10 nəfər günahsız insanın heç 7-si çıxmamış daha bir cinayətə imza atdılar, əllərini artıq neçənci dəfə qana bulaşdırdılar. Qanasusayanlar, cəbhədəki uğurlarımıza dözməyənlər, işğal etdikləri torpaqları əllərindən alınanlar dünən, oktyabrın 17-də yenidən Gəncəni hədəfə aldılar. Bu cinayət yenə gecə saatlarında törədilməklə mülki əhalidən daha çox insanın ölümünə hesablanmışdı. Əhalinin daha sıx yerləşdiyi ərazilərə atılan raketlər böyük dağıntılara səbəb oldu, heç nədən xəbəri olmayan, yatan qocalar, uşaqlar, qadınlar həlak oldu...***



## Gəncəlilər yenə dözüm, dəyanət göstərdilər, düşməndən qisas alacağıq dedilər

Ermənistan silahlı qüvvələrinin dünən gecə saatlarında cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsini raket atəşinə tutması nəticəsində 14 nəfər həlak oldu, 45-dən artıq şəxs yaralandı, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Baş Prokurorluqdan verilən məlumata görə, faktla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7 (qəsdən iki və ya daha çox şəxsi öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılmışdır.

Yenə də bütün Gəncə Ermənistan ərazisindən atılan raketlərin düşdüyü ərazilərə axışdı. Fövqəladə Hallar Nazirliyinin xüsusi xilasedici qrupları, əsgərlər, polis işçiləri və digər qüvvələr hadisə yerində olsalar da, dağıntılar altında qalan insanları xilas etməyə başlasalar da şəhər əhalisi, qonşular, qohumlar, dost-tanışlar öz kömək əlini uzatmağa çalışır, yardım göstərməyə cəhd göstərirdilər. Lakin onları əraziyə buraxmaq, əksinə, burada çalışanların işinə mane olardı. Ona görə də hamı erməni cəlladlarının bu xain hərəkətlərindən yaranan qəzəbdolu baxışlarla baş verənləri kənardan müşayiət etməli olurdu.

Dağıntının miqyası isə çox idi, lap çox. Təkcə bir ərazidə 10-dan çox fərdi ev yerlə yeksan olmuşdu və təbii ki, bu da xilasedicilərə müəyyən çətinliklər yaradırdı. Buna baxmayaraq, onlar öz işlərinin öhdəsindən yüksək peşəkarlıqla və bacarıqla gəlirdilər. Şəhərin rəhbəri Niyazi Bayramov, müvafiq qurumların nümayəndələri, Gəncədən seçilən deputatlar terror aktı baş verən kimi əraziyə gəldilər və son yaralı dağıntılar altından çıxarılana kimi heç yana getmədilər. Bir qədər sonra Bakıdan Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov da gəldilər. Təbii ki, adlarını çəkdiyin şəxslərin burada olması, adamlara təskinlik verməsi, kömək, qayğı göstərməsi zərərçəkən insanlara, elə bütün gəncəlilərə hədsiz təsəlli idi. Səhər saatlarında ölkə Prezidenti, Ali Baş Komandanımızın xalqa müraciəti isə bu təsəllinin zirvəsi oldu. Dövlət başçımızın kəskin çıxışı ilə yanaşı, Füzuli şəhərinin və daha 7 kəndin azad olunması xəbəri gəncəlilərin qisasını almaq kimi böyük coşqu ilə qarşılandı.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun “bu,erməni vəhşiliyinin, vandalizminin nəticəsidir. Təkcə Gəncə şəhəri deyil, digər yaşayış məntəqələrimizi də vururlar. Burada heç bir hərbi obyekt yoxdur, əhalinin çox yaşadığı yerdir. Camaat çox mətindir, özlərini qətiyyətli aparırlar. Heç bir panika yoxdur. Hazırda Ermənistan öz dərsini alır, Azərbaycan Ordusu qətiyyətli irəliləyişlər edir. Azərbaycan xalqı Ali Baş Komandanı dəstəkləyir və Ali Baş Komanda tarix yazır. Biz də xoşbəxt adamlarıq ki, o tarixi birgə yaşayırıq. Allah şəhidlərimizə rəhmət eləsin” deməsi də yuxarıda qeyd etdiyim mənəvi dəstəklərin daha bir təzahürü oldu.

Həmin anlarda evlərinə tələsməyən minlərlə Gəncə sakini bir tərəfdən yaralılara, evləri dağılanlara kömək göstərmək, digər tərəfdən cəbhədən yeni xoş xəbərlər almaq üçün buradan getmədilər, sonadək öz həmyerlilərinə dəstək oldular. Amma ən böyük dəstək, düşmənə zərbə bilirsiniz nə idi? Şəhər sakinlərinin qətiyyən qorxmaması, mətin dayanması, heç bir təşvişə qapılmaması idi! Maykada olan bir cavan oğlanı dağıntılar altından çıxaran kimi “and olsun Allaha, heç nədən qorxmuruq, inşallah biz qalib gələcəyik, Qarabağ Azərbaycandır” deməsi vaxt tapıb ondan müsahibə alan Türkiyənin TV-100 kanalının müxbirini həm kövrəltdi, həm də jurnalist Gəncə sakininin cəsarətinə heyran qalıb “keçmiş olsun, qardaşım” deyib aralandı.

Erməniləri də içinə kimi yandıran Gəncəni təşvişə sala bilməmələridir. Şəhər nəinki yerindədir, adamlar nəinki heç yana getməyi belə düşünmürlər, əksinə, səmadan mərmilər yağa-yağa özlərini həmyerlilərinin yanına çatdırmağa tələsirdilər.

Şəhərin sakinləri ilə apardığımız söhbətlər, onların dedikləri, nikbin olmaları qəlbimizi bir daha dağa döndərdi.

***Nüşabə Məmmədova, şəhər sakini, yazıçı-dramaturq:***



“Gəncəlilər mərdi-mərdanə dayanıblar. Bildiyiniz kimi, bu terrordan əvvəl də Gəncəyə dəfələrlə raket atılmışdı. Lakin bu günə qədər heç bir gəncəli şəhərdən çıxmağı düşünmür. Hətta azyaşlı uşaqlar da evdədir. Şəxsən mənim ailəmdən bütün uşaqlar evdədir. Nəvələrimin Göyçaya, Bakıya getmək imkanları var idi. Lakin 16 və 10 yaşlarında olan nəvələrim dedilər ki, “nənə, biz ölümdən qorxmuruq, Gəncədən heç yerə gedəsi deyilik”.

Hazırda şəhərdə həyat əvvəlki kimi davam edir. Məni sevindirən odur ki, Gəncədə çox böyük ruh yüksəkliyi var. Bütün bu olanlardan sonra sanki xalq oyanıb, milli dirçəlişdir. Biz indi həm çətin, həm də möhtəşəm günlər yaşayırıq.

Prezidentimiz İlham Əliyev indicə bizi bir daha sevindirdi. Deyirdilər Füzulini almaq çətin olacaq. Amma baxın, aldıq da, o tərəfə keçdik də. Allah Prezidentimizi qorusun. Qeyd edim ki, son vaxtlarda biz həm də Prezidentimizin indiyədək bilmədiyimiz, tanımadığımız elə gözəl tərəflərini gördük ki, düzü, heyran olmuşuq. Prezidentimiz israrla sona qədər xalqımızın arxasında olduğunu nümayiş etdirir”.



**İrina Kalaşnikova, şəhər sakini, “Novosti Qyandji” qəzetinin redaktoru:** – “Mən bu şəhərin sakinləri ilə fəxr edirəm. Cəsur, mərd, mətin, prinsipial. Əsl insanda olan müsbət mənəvi keyfiyyətlər gəncəlilərdə var. Vaxtilə bizim şəhərin çörəyini yeyib, indi nankorluq edərək cəbhə bölgəsindən 80-100 kilometr aralıda yerləşən qədim bir şəhəri öz ərazilərindən raket atəşinə tutması ermənilərin hansı xislət sahibi olmalarını aydın göstərir. Həyat yoldaşım Valeh Hüseynov 29 saylı məktəbin direktorudur. Məktəb raketin düşdüyü yerdən cəmi 150 metr aralı olar. Partlayış olan kimi, ikimiz də heç nədən qorxub çəkinmədən məktəbə sarı qaçdıq. Yaxınlaşanda dəhşətə gəldik. Məktəbin qapısı kökündən qopmuşdu. Qırılmayan pəncərə şüşəsi, yerindən çıxmayan çərçivə qalmamışdı. Səhərə qədər buradan tərpənmədik. Bütün valideynlər bura axışdı. Nə qorxu, nə təşviş-təlaş?! Bayaq dedim axı, bura Gəncədir, bura Azərbaycandır!

Övlad itkisi nədir, mən yaxşı bilirəm. Bir oğlum həlak olub. Hazırda ikinci oğlum ordu sıralarındadır. Mən onlarla həmişə fəxr etmişəm. İnanıram ki, tezliklə qələbə bizimlə olacaq.”





***Naqif Həmzəyev, millət vəkili:*** “Eyni alçaq ssenari, eyni rəzillik, insanlığa yaraşmayan hərəkət. Yenə gecə yarısı, yenə dinc əhali, yenə Gəncə. Mən bu şəhərdə böyümüşəm. Bu şəhərin sakinlərini yaxşı tanıyıram. Onları bu cür rəzilliklərlə qorxutmaq mümkün deyil. Əvvəla, Cavad Xan nəslinin nümayəndələri elə anadan qəhrəman doğulurlar – desəm, yanılmaram. Digər tərəfdən, onları cəsur, ürəkli edən bizim Prezidentimizin, cənab İlham Əliyevin qətiyyəti, ordumuzun gücü, xalqımızın qələbəyə inamıdır. Bax, bunların hamısı bir yerə yığışır və yumruq kimi birləşir.

Məni narahat edən, düşündürən bir çox beynəlxalq təşkilatların susması, ən yaxşı halda ikili standartlara üstünlük verməlidir. Niyə səsləri çıxarmırlar? Niyə cinayətkar erməni rəhbərlərini yerində otuzdurmurlar? Onlar görmürlərmi ki, Ermənistan öz ərazisindən dinc bir şəhəri vurur, adamları öldürür? Gəncədə hərbi obyektmi var, hərbi sursat anbarlarımı mövcuddur?

Eybi yox, yaxşı deyiblər, “haqq nazilər, lakin üzülməz”. Biz özümüz onların dərsini verəcəyik, necə ki, veririk.”

...Bəli, söhbət etdiyim müxtəlif peşə sahiblərinin hər biri Gəncəni öz balası kimi sevir və deyirlər ki, dağıdılan evlər, digər obyektlər yenə əvvəlkindən də gözəl bərpa ediləcək və sakinlər rahat mənzillərlə təmin olunacaqlar. Çünki buna bizim dövlətin gücü, qüdrəti çatır. Ermənistan deyil ki, dilənsin, ağız açmadığı dövlət qalmasın.

Yenə alınmadı. Nə təşviş başladı, nə köç. Əksinə, başqa şəhər və rayonlarda olanlar da qədim Nizami yurduna gəldi. Sakinlərə öz həmrəyliklərini bir daha nümayiş etdirdilər. Var ol Gəncə, var ol Azərbaycan! Var ol cənab Prezident, var ol Ali Baş Komandan! Biz Sizə inanırıq, QƏLƏBƏMİZƏ inanırıq!

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***
**Gəncə şəhəri**